# Sonaxanım Mikayılova:
# “Bu sənət çətin olsa da, həm gözəldir, həm də şərəfli”

*“Yuğ”un yubilyar Sonası ilə söhbət*



■ Xəyalə Rəis
teatrşünas

İnsan yaşlandıqca kövrəkləşir deyirlər. Ancaq sənət əhli onsuz da hər zaman kövrək və incə qəlbli olur. Elə bu gün (2 fevral) 60 yaşını qeyd edən Əməkdar artist, prezident mükafatçısı Sonaxanım Mikayılova kimi. O, ömrünün 38 ilini məhz Azərbaycan kinosuna, teatrına həsr edib.

Sonaxanım Mikayılova Moskva Dövlət Kinematoqrafiya İnstitutunu bitirib. Yaradıcılığa “Onun b?lal? sevgisi” filmi ilə başlayıb. “Azərbaycanfilm” kinostudiyasının nəzdində fəaliyyət göstərən kinoaktyor teatr studiyasında çalışıb. Kino fəaliyyəti ilə kifayətlənməyən aktrisa 1989-cu ildə “Yuğ” teatrına gəlib və ifa etdiyi obrazlarla teatr ictimaiyyətinin də diqqətini özünə cəlb edə bilib.

Fərdi ifa tərzinə, səhnə mədəniyyətinə və duyumuna malik olan aktrisa “Yol”, “Dəli Domrul”, “Yuxu”, “Salam”, “Savalan”, “Can üstə”, “Olsun” və s. tamaşalarda maraqlı obrazlar yaradıb. Türkiyədə, Rusiyada, Tatarıstanda keçirilmiş Beynəlxalq Teatr festivallarının iştirakçısı olub.

Biz də sənətkarımızı təbrik etmək üçün onunla görüşdük. Söhbətdən əvvəl kiçik araşdırma apardım. Çəkildiyi filmlə-



rin siyahısına baxdıqda isə gözlərimə inanmadım. Sən demə Sonaxanım Mikayılovanın kinoda qazandığı nailiyyətlər səhnədəki işlərini ötüb keçibmiş və təəssüf ki, biz gənc nəsil onu sadəcə Yuğçu Sonaxanım kimi tanımışıq. Bu işdə əslində özümü də bir növ qınayıram. Nə isə ...

Müsahibim “Alo, mənəm Arşınmalçı”, “Babək”, “Bəyaz həyat”, “Cavid Əmri”, “Fikirləşmək lazımdır”, “Hədiyyə”, “Xəbərdarləq”, “İmtahan”, “Köhnə bərə”, “Qala”, “Qaladan tapılan məcr?”, “Qəm pəncərəsi”, “Onun bəlalı sevgisi”, “Ölüm növbəsi”, “Park”, “Pəri qala”, “Sahə”, “Sahilsiz gecə” , “Sonuncu dərviş”, “Şahid qız”, “Şərikli çörək” , “Tərsinə çevrilən dünya”, “Təzə evlənənlər “Yalan”, “Yaramaz”, “Yay gününün xəzan yarpaqları” kimi filmlərdə rol alıb.

Biz də müsahibimizi bu özəl gündə təbrik edib, söhbətə başladıq.

**- Sizi 60 illik yubileyiniz münasibəti ilə təbrik edir və can sağlığı arzu edirik. 60 yaş bir aktrisa üçün nə deməkdir?**

- 60 yaş mənim üçün yaradıcılığın pik nöqtəsi demək deyil. 60 yaş elə bir vaxtdır ki, bu yaşda sən daha maraqlı işlər görə bilərsən. Topladığın təcrübəyə əsasən daha çox, maraqlı işlər görə bilərsən. Doğrudan da bu yöndə məndə böyük istək var. Bir dəfə mərhum sənətkarımız Vaqif İbrahimoğlu mənə sual verdi ki, “görəsən nə üçün yaşa dolmuş aktrisalar bu sənəti atıb gedirlər?” İndiyə qədər də onun bu sualı haqqında düşünürəm. Səfurə İbrahimova, Zərnigar Ağakişiyeva və bir çox aktrisalarımız yaşlı vaxtında bu sənəti atıb gediblər. Düzdür, kimisi xəstəliyi ilə bağlı, kimisi digər səbəblərə görə atıb gedib. Amma bu yaşdan sonra sənəti atıb getsək, bizim üçün yaşamaq çox çətinləşər. Axı bu bizim həyat tərzimizdir. Sevdiyimiz sənətdir, ruhi qidamızdır.

**- Ömrünüzün 28 ili məhz “Yuğ” teatrı ilə bağlıdır. Bu teatr psixosof teatrıdır və bir qədər fəqli üsluba malikdir. Geriyə baxanda heç peşmançılıq hissi keçirmisinizmi?**

- Geriyə boylananda bu teatra gəldiyim üçün heç də heyfsilənmirəm. Vaqif müəllimlə çalışmağı mən özüm seçmişəm. Mən Moskvada Kinematoqrafiya İnstitutunu bitirib gələndə bizi kinostudiyaya göndərdilər. O zaman bizdə Kinoaktyor teatrı var idi. Oraya Vaqif İbrahimoğlunu dəvət etdilər ki, kino aktyorları üçün tamaşa qursun. Orada Rasim Balayev, Həsən Məmmədov, Əminə Yusifqızı, Muxtar Maniyev, Leyla Bədirbəyli, Ənvər Həsənov, Eldəniz Rəsulov və b. kino aktyorlarımız cəmləndi. İlk dəfə Vaqif müəllimlə orada tanış oldum. Təzə vaxtlarda onun danışığını başa düşmürdük (gülürük). Ancaq onunla daha yaxın tanış olandan sonra dedim ki, bu mənim rejissorumdur. Beləliklə mən onu özümə rejissor, o isə məni aktrisa kimi seçdi.

**- Necə?**

- Bir gün Fəxrəddin Manafov mənə yaxınlaşıb dedi ki, Vaqif müəllim teatr açmaq istəyir, əgər istəsən sən də orda olacaqsan. Tale elə gətirdi ki, kinoaktyor teatrı bağlandı. Direktorla danışdım və öz istəyimlə teatra getdim. Oradan Fərhad İsrafilov, Vəliyyət Vəliyev, Həmidə Ömərova və bir sıra sənətkarlarımız bizimlə gəldi. O zaman Vaqif İbrahimoğlu Musiqili Teatrın baş rejissoru idi. Biz hələ teatrı yaratmamışdıq, labaratoriya kimi fəaliyyət göstərirdik. Vaqif müəllim bizimlə “Koroğlu” tamaşası, Ramiz Rövşənin şeirləri əsasında kompozisiyalar hazırladı. Bir müddətdən sonra teatrı açmağa özümüzü hazır hiss etdik. O Musiqili Teatrdan ayrıldı, Azdramanın 4-cü mərtəbəsində YUĞ teatrını yaratdı. Əvvəl studiya kimi fəaliyyət göstərdik. Sonradan Dövlət Teatrı statusu aldıq.

Mənim intellektual səviyyədə yetişməyimin səbəbi Vaqif müəllimin yanında çalışmağım oldu. O, bizə müəllim, ata, ana, qardaş, yaxın dost idi. Biz nəinki ondan sənəti öyrənir, hər hansı bir çətinliklə üzləşəndə onun yanına gəlirdik. Vaqif müəllim yavaş-yavaş öz məktəbini yaradırdı. Bizə deyirdilər ki, o bir laboratoriyadır, Vaqif İbrahimoğlu sizdən istifadə edir, siz onun əlində sadə bir oyuncaqsınız. Ancaq onlar başa düşmürdülər. O zamanlar Vaqifi sevənlər də vardı, sevməyənlər də. Vaqif müəllimin yanında yetişən tələbələr bu gün öz istiqamətləri üzrə seçilirlər. Bizim belə müəllimlərimiz çox azdır, demək olar ki yoxdur. O nəinki məni, oğlum Mikayılı da yetişdirdi. Mən ona yarızarafat deyirdim ki, öz nəvəmi də sizin yanınıza gətirəcəyəm. O deyirdi ki, heç olmasa onu gətirmə.

**- Səhnədə olduğunuz müddətcə Azərbaycan teatrının, kinosunun əfsanələri ilə bir yerdə çalışmısınız. Bu gün onların yoxluğu teatr səhnəsində hiss olunurmu?**

- Əvəzolunmaz insan yoxdur deyirlər. Əlbəttə ki, hər birinin yeri görünür. Kiməsə baxıb demək olmaz ki, bu Həsən Məmmədovdur, ya filankəsdir. Mənim bir çox filmlərdə çəkildiyim aktyorlar çoxdan dünyasını dəyişib. Hərdən dünyasını dəyişmiş aktyorlar haqqında deyirəm ki, hanı Nəsibə Zeynalova, Barat Şəkinskaya, Hacıbaba Bağırov, onların hamısı rəhmətə gedib. Onlar artıq yoxdur, indi bizim növbəmizdir. Onlar bizim qəlbimizdə yaşayacaqlar böyük sənətkarlar kimi. Ancaq pessimizmə qapılmağa ehtiyac yoxdur, bu gün Fuad Poladovumuz və bu qəbildən olan aktyorlarımız var. İndi tamam başqa nəsil gəlir. Misal üçün gənclərin arasında Hikmət var. O dərəcədə güclü aktyordur ki... Həmin gənclər hələ yolun başlanğıcındadır.

**- Siz çoxlu filmlərə çəkilmisiniz. Bu gün Azərbaycanda kino sahəsi inkişafa doğru gedir. Belə bir zamanda sizi niyə seriallarda, yeni çəkilən filmlərimizdə görmürük?**

- Sevindirici haldır ki, bu gün seriallarımız, filmlərimiz çəkilir. Hazırda daha çox gənclər kino çəkirlər. Onların çəkdiyi filmlər, yazılan ssenarilər - yəqin ki, məni orda görmürlər, mən də özümü orda görmürəm. Çox zaman mənə təklif edəndə bundan imtina edirəm. Bu yaxınlarda İranlı rejissor Babək Şirinsifət bir obraz təklif etdi. Onunla münasibətim çox yaxşıdır. Dedim ki, mən bir aktrisa kimi həvalə etdiyiniz obrazda sözümü deyə bilməyəcəm. Mənə bu maraqlı deyil. Bir çox təşkilatlardan da müraciətlər var. Əgər istədiyim obraz mənə təklif olunsa, o zamana razılıq verərəm. Seriallardan çox təkliflər gəlib. Sadəcə olaraq özümü orda görməmişəm. Seriallarımızın da çəkilməsi sevindirici haldır. Dünya, Avropa kinosunda bizim yaşda aktrisalar üçün ssenarilər yazılır. Bizim üçün yazan yoxdur. Ancaq ana, nənə obrazları verirlər, onlar da ya çay gətirir qoyur, ya da balasının başını sığallayıb gedir. Axı biz bu vaxtımızda elə rollar oynamamalıyıq. Aktrisa kimi özümüzə hörmət ediriksə, arxa planda epizodik obrazla çıxış etməməliyik. Ona görə yox ki, mən özümdən razıyam, bu mənə maraqlı deyil.

**- Yuğ teatrında gənclərin yetişməsində sizin fəaliyyətiniz danılmazdır. Gənclər Yuğ ənənəsini nə dərəcədə yerinə yetirməyə çalışırlar?**

- Vaqif müəllim gözəl rejissorlar yetişdirib. O, rejissorları bizim üçün ərməğan qoyub gedib. Onların hər biri onun məktəbinin bir hissəciyini daşıyır. Teatrımızda 3-4 rejissor var ki, tamaşalar qurur. Vaqif müəllimin estetikası o tamaşalarda duyulur, ancaq onlar özlərininkini də həmin tamaşaya əlavə edirlər. Çalışırlar ki, bu ənənənələri saxlasınlar.

**- Teatr səhnəsində nisgilli olduğunuz obrazlar varmı?**

- Əlbəttə, var. Çox istərdim ki, Çexovun “Qağayı” pyesində Arkadinanı oynayım. Başqa obrazlar da var. Mən deyəndə nədənsə həyata keçmir. Digərlərinin adlarını çəkmək istəmirəm.

**- Yuğ Teatrının binası söküldü, truppa Kukla Teatrına köçürüldü. Yəqin ki, yaradıcı insan üçün həmin binanın dağıdılması sizə də təsirsiz ötüşmədi.**



- Bu bizim ağrılı yerimizdir. Vaqif müəllimin necə böyük əziyyət, sevgi ilə yaratdığı bu teatr binası dağıldıldı. Biz Azdramanın 4-cü mərtəbəsində fəaliyyət göstərərkən Vaqif müəllim dedi ki, gəlin gedək, təzə binamıza baxaq. Bilirsiz ki, Yuğ Teatrı da Azdramanın arxasında yerləşirdi. Ora köhnə hamam olub. Binaya girəndə gördük ki, içəri çox pis vəziyyətdədir, dağıdılıb. Daşlar, şalbanlar Orada yaradıcılıqdan heç bir əsər-əlamət yox idi. Ancaq biz o binaya sevə-sevə girdik. O gündən biz o binaya vuruldduq. O, bizim üçün Yuğ idi. Yuğun ürəyi idi. Heyf ki, belə oldu. Hərdən internetdə görürəm ki, Yuğun köhnə binasının şəklini qoyublar. Bu ağrıverici bir şeydir. Amma mən gələcəyə inanıram. Yəqin ki, nəsə düşünəcəklər və bizi bina ilə təmin edəcəklər.



**- Oğlunuz Mikayıl Mikayılov da tanınmış rejissorlardandır. Digər oğlunuz Anar Mikayılov da sevilən balet artistlərimizdəndir. Onların bu sahəyə istiqamətlənməsində bir ana kimi sizin rolunuz nə qədərdir?**

- Mənim uşaqlarım teatrda böyüyüb. Yoldaşım da teatrda işləyirdi. Biz ailəlikcə səhər-axşam teatrda idik. Balaca oğlum Anar Opera-Balet teatrının solistidir. Vaqif müəllim uşaqları dəhşət dərəcədə sevirdi. O uşaqlarla səhnədə oynayırdı. Məni də anam teatra gətirmişdi. O, xalq teatrına gedib-gəlirdi. Bu, sənəti mənə anam sevdirmişdi. İnsan ki, uşaqlıqdan teatra gəlib-getdisə, ordan qopa bilmir. Onlar aktyorların, rejissorların içində, səhnədə böyüyüblər və bu gün hər ikisi səhnədədir. Kiçik oğlum balet sənəti ilə məşğul olur. Ayın (fevralın) 5-də “Yeddi gözəl” tamaşasında Bəhram rolunu canlandıracaq. Sevinirəm ki, onlar bu sənəti seçiblər. Çox zaman həmkarlarım deyir ki, istəməzdik övladlarımız bu sənəti seçsinlər. Əgər o istedadlıdırsa, sənətdə nəsə edə biləcəksə, qoy olsun. Çünki bu sənət çətin olsa da həm gözəldir, həm də şərəflidir.

